# FİRİDUN BƏY KÖÇƏRLİNİN MƏTNŞÜNASLIQ FƏALİYYƏTİ

*Avropa filologiyasında istifadə edilən klassik metodların bir qisminin XVIII əsrdən başlayaraq köklü keyfiyyət dəyişikliyinə uğraması və yeni metodların yaranması bu elmin qarşısında duran vəzifələrin həllində də ciddi dəyişikliklərə səbəb oldu. Ədəbi əsərlərin öyrənilməsində komparativ, bədii-bioqrafik, psixoloji, mifoloji və xüsusilə hermenevtik metoddan (A.Şleyermaxer hermenenevtik metodun teoloji mətnlərlə yanaşı, filoloji mətnlərə də tətbiqinin mümkünlüyünü əsaslandırdıqdan və dərketmənin, anlamanın özünü təhlilə cəlb etdikdən sonra) geniş istifadə edilməsi bu elmin "simasını dəyişdi", XIX yüzillik tarixə "anlama əsri" kimi daxil oldu. Əslində, "Hermenevtika problematikasının - mətnlərin anlaşılması və şərhi - qoyuluşu hələ antik dövrdən, Aristotelin "Şərhlər haqqında" əsərindən başlayır. Sonralar yalnız dini mətnlərin anlaşılmasına tətbiq edilən bu metod XIX əsrdən ikinci "həyatını" yaşamağa başladı" (1, 165).*

Hermenevtikanın (ədəbi şərh, anlama nəzəriyyəsi; qarşılığı - təfsir, şərh, mətnşünaslıq) tarixi idrak metodu kimi təsdiqini tapması istiqamətində aparılan araşdırmalar (V.Diltey tərəfindən) ədəbiyyat tarixçiliyinə və ədəbi mətnlərin (ilk dövrlərdə folklorun və antik ədəbiyyatın, sonra isə yeni dövr ədəbiyyatının) toplanılıb nəşr edilməsinə tələbatı daha da artırdı: ədəbiyyat tarixlərinin yazılması və ədəbi mətnlərin toplanılıb, yeni prinsiplərlə nəşri geniş vüsət aldı - hermenevtika ədəbiyyat tarixçiliyinin təməl prinsipinə çevrildi.

Analoji ədəbi-tarixi istiqamət müəyyən gecikmələrlə əvvəlcə rus, sonra isə Azərbaycan ədəbiyyatşünaslığında baş verir. Prosesin Rusiyada gecikməsinin səbəbi - yeni ədəbiyyatın burada Avropa ölkələrinə nisbətən gec yaranması idi. "Bununla əlaqədar olaraq nəşr işi də gecikmişdi. Bu səbəbdən də Qərbi Avropa edision tekstologiyasının (*təcrübi tekstologiya-mətnlərin nəşrə hazırlanması* - **A.S.**) mənimsənilməsi o zaman üçün (XVIII əsrin sonları nəzərdə tutulur - A.S.) başlıca vəzifə idi" (9, 15).

Avropa edision tekstologiyasının təcrübəsindən istifadə edilməsi - XIX əsrin ikinci yarısından Rusiyada da mətnlərin elmi prinsiplər əsasında nəşrini və ədəbiyyat tarixçiliyinə marağı daha da artırır: fərdi üsul ilə yanaşı, dövrün qabaqcıl ziyalılarına müraciət olunaraq əsərlər toplanılır, onlar kitablara xronoloji ardıcıllıqla və janrlar üzrə yerləşdirilir, əsərlərin əsas mətnləri ilə yanaşı, variantları da kitablara daxil edilir, mətnlərə bioqrafik, biblioqrafik, real şərhlər yazılır, mətnin tənqidi (tekstologiya) ədəbiyyat tarixçiliyinin tərkib hissəsinə çevrilir.

Həqiqətən də, "Azərbaycan ədəbiyyatı"nın (*F.Köçərlinin əsəri* - **A.S.**) yazıldığı dövrdə və ondan əvvəl Yaxın və Orta Şərq, həmçinin qonşu xalqlar ədəbiyyatşünaslığında olmasa da, rus ədəbiyyatşünaslıq elmi sahəsində çox işlər görülmüşdü. Rus ədəbiyyatşünaslığı P.A.Yefremov, M.Qlazunov, Z.N.Maykov, S.A.Venqerov, A.N.Rıpin, U.A.Nikolski, D.N.Ovsyaniko-Kulikovski, M.N.Speranski, N.K.Piksanov və başqalarının yazdıqları, tərtib və ya nəşr etdikləri mükəmməl ədəbiyyat tarixləri, monoqrafiyalar, bioqrafik lüğətlər və s. əsərlərlə zəngin idi. Bu əsərlərdə rus yazıçılarının həyat və yaradıcılığı geniş və hərtərəfli təhlil olunur, ədəbiyyatşünaslıq elminin ayrı-ayrı məsələləri haqqında qiymətli mülahizələr söylənir, rus ədəbiyyatı tarixinin sistemli bir şəkildə tədqiqi sahəsində uğurlu addımlar atılırdı" (5, 5).

F.Köçərlinin "Azərbaycan ədəbiyyatı"nı hazırlayarkən materialları toplama üsulunda (ziyalılara müraciət etməklə) V.Nikolskidən ("Yüz rus yazıçısı" kitabını nəşrə hazırlayan), kitabın tərtibində isə (xronoloji prinsipdən) S.Venqerovdan ("Rus poeziyası" kitabının tərtibçisi) bəhrələndiyini (təbii ki, bu əsərlərin tərtibində fərqlər də var idi) müşahidə edən akademik B.Nəbiyev də gerçəyə əsaslanır. Amma, bir daha xatırladırıq ki, ədəbiyyatın yeni üsullarla araşdırılması və ədəbiyyat tarixlərinin yazılması, eləcə də mətnlərin elmi prinsiplərlə nəşri, başqa sözlə, mətnin tənqidinin (tekstologiyanın) də yeni vəzifələr yerinə yetirməsi rus ədəbiyyatşünaslığına Avropa filologiyasından keçmişdi. Bunu rus ədəbiyyatşünaslarının özləri də etiraf edir. Onu da əlavə edək ki, Avropa və rus filoloqları hermenevtikanın (tekstologiyanın) təşəkkülünü yazının, inkişafını isə çap məhsullarının meydana çıxması ilə əlaqələndirirlər və bu, əslində də belədir.

Azərbaycanda isə kitab və qəzet nəşrinə həm Avropaya, həm də Rusiyaya nisbətən çox gec başlanılmışdı. Doğrudur, mütəxəssislərin də qeyd etdiyi kimi, XIX əsrin əvvəllərində - işğalın ilk illərində Rusiyanın Azərbaycana ekspansiv münasibəti ilə yanaşı, ictimai-mədəni sahədə bir canlanma da hiss olunurdu. "Lakin həmin canlanma mədəniyyətin bütün sahələrində eyni ölçüdə deyildi. Kitab mədəniyyəti buna misal ola bilər.

Əsrin (*XIX əsr* - **A.S.**) birinci yarısında olduğu kimi, 50-80-ci illərdə də kitab nəşri ləng gedirdi. Azərbaycanca mətbuat çap edəcək xüsusi mətbəə yaranmamışdı (bu otuz illik dövrə aid cəmisi əlliyə qədər kitab əldə edilmişdir)" (6, XXXI).

Azərbaycanda kitab və mətbuat nəşrinin əsas maneələri texniki avadanlıqların çətinliklə əldə olunması və bahalığı, mətbəə işlərində çalışan mütəxəssislərin çatışmazlığı, çap olunan azsaylı kitab və qəzetlərin belə realizə problemləri və xüsusilə ideoloji təpkilər - senzura qadağaları və s. idi. H.Zərdabinin "bircə qəzeti də basdırmağa adamın və qəzetin məxsusi çapxanasının olmaması" ilə bağlı ürək ağrıdan çıxışları, təəssübkeş ziyalıların Azərbaycanda nəşr problemləri ilə bağlı müxtəlif ünvanlara göndərdiyi məktublar, çap etdirdikləri məqalələr, Mirzə Cəlilin "sansor davaları" və s. faktlar nəşr işinin acınacaqlı vəziyyətdə olduğundan xəbər verir.

F.Köçərli də belə bir mürəkkəb və çətin dövrdə ədəbi irsin toplanılıb nəşr edilməsini və Azərbaycan ədəbiyyatı tarixinin yazılmasını zəruri bir məsələ kimi ortaya qoyur və özü də bu problemlərlə ciddi şəkildə məşğul olurdu.

Alim bədii ədəbiyyata "millətin şən və əzəmətinə, tərəqqi və səadətinə təkan verən bir səbəb" kimi yanaşmış, onu yüksək dəyərləndirmişdir (3, 44).

F.Köçərli yaradıcılığının mövzu dairəsi çox genişdir və onun ədəbiyyata dair tədqiqlərinin böyük bir hissəsini tekstoloji araşdırmaları təşkil edir. Doğrudur, o, ayrılıqda hər hansı bir sənətkarın əsərlərini nəşrə hazırlamayıb (Bizdə isə mətnşünaslıq, birmənalı olaraq mətnlərin, həm də bütün ədəbi mətnlərin deyil, yalnız qədim əlyazmaların nəşrə hazırlanması kimi başa düşülür F.Köçərli "Balalara hədiyyə" adlı bircə kitab tərtib edib), amma, alim həm "Azərbaycan ədəbiyyatı" adlı monoqrafiyasında, həm də bir çox məqalələrində əsərlərin təhlilləri ilə yanaşı, özlərinə də geniş yer verib, mətnşünaslığın aktual problemlərinə toxunmuş, sırf tekstoloji fəaliyyətlə məşğul olmuşdur. Başqa sözlə, F.Köçərlinin elmi fəaliyyətinin təməlində tekstoloji metod dayanır və yeri gəlmişkən xatırladaq ki, mətnlərin tekstoloji tədqiqində mətnin özünün polifonikliyi, çoxməzmunluluğu və çoxqatlığı səbəbindən çeşidli metodlardan (linqvistik, paleoqrafik, bioqrafik, komparativ, semiotik, fəlsəfi, hətta, riyazi və s.) istifadə edildiyi kimi, mətnşünaslığın özü də digər filoloji araşdırmalarda metod kimi çıxış edə bilir. Onu da əlavə edək ki, mətnşünaslıq müstəqil elmdir və bütün elmlər kimi, onun da həm təcrübi, həm də nəzəri aspektləri - tarixi, problematikası, metodologiyası və terminologiyası var.

Bizim filoloji elmimizdə də mətnlərin nəşrini nəzərdə tutmayan tekstoloji tədqiqatlar az olmayıb (indi də var) və F.Köçərlinin də bir çox elmi məqalələri və "Azərbaycan ədəbiyyatı" monoqrafiyası bu sıraya daxildir.

Diqqətdən yayınan ədəbi əsərlərin üzə çıxarılması, məlum olduğu kimi, mətnşünaslığın əsas vəzifələrindəndir. F.Köçərli də tekstoloji məqalələrinin bir qismində və "Azərbaycan ədəbiyyatı"nda naməlum əsərləri üzə çıxarıb oxuculara təqdim və məzmunlarını şərh edir. O, "Rəhbər" jurnalında çap etdirdiyi "Ədəbiyyatımıza dair" adlı məqalədə deyir: "Molla Vəli Vidadinin, Molla Pənah Vaqifin və Qasım bəy Zakirin göy üzündə qatarlaşıb oxuya-oxuya uçan durnalara xitabən yazdığı mürəbbeatı möhtərəm "Rəhbər"in səhifələrinə təqdim etməklə belə məlum edirəm ki, bu əsərlər nə Adolf Berjenin Leypsiqdə çap olunan məcmuəsinə və nə də Yusif Qarabağinin kitabçasına daxil olmayıb, nüdrətən tapılan əsərlərdir" (4, 130).

Müəllif əsəri təqdim etdikdən sonra onların tarixçəsinə:

1. Yazılma səbəbi və şəraitinə;
2. Mühit müəllif-mətn əlaqələrinə;
3. Nüsxə fərqlərinə;
4. Vaqifin və Zakirin "Durnalar"ını Vidadinin əsərinə nəzirə kimi yazdıqlarına aydınlıq gətirir.

F.Köçərli həm məqalələri, həm də "Azərbaycan ədəbiyyatı" kitabında onlarla şairin naməlum əsərlərini oxuculara təqdim etmişdir.

F.Köçərlinin toxunduğu tekstoloji problemlərdən biri də atribusiyadır (əsərlərin qarışıq salınmış müəlliflərinin dəqiqləşdirilməsi). "Salik"lər haqqında yaranan mübahisənin həlli də ona məxsusdur. O dövrün mətbuatında bir müxəmməs dərc edilmiş, onun müəllifinin Kazım ağa Salik, yaxud, Salik Rasizadə olduğu barədə mübahisə yaranmışdı. Mübahisəyə F.Köçərli də qoşulur və "Qazax şairi Kazım ağa Salik təxəllüsü barəsində bir para məlumat" adlı geniş bir məqalə çap etdirir - burada şairin bioqrafiyası və yaradıcılığı barədə müfəssəl məlumat verir. Haqqında söhbət gedən əsərin Kazım ağa Salik deyil, Salik Rasizadənin (H.Cavidin) olduğuna aydınlıq gətirir.

İmzaları qarışıq salınmış əsərlərin müəlliflərinin dəqiqləşdirilməsində istinad edilən mötəbər mənbə, məlum olduğu kimi, avtoqraflardır. Avtoqraf əldə olmadıqda isə yardımçı vasitələrə - əsərin məzmununa, dil faktlarına, mühit-müəllif əlaqələrinə və s. müraciət edilir. F.Köçərli də səriştəli bir mətnşünas kimi, haqqında söhbət gedən əsərin avtoqrafı əldə olmadığından diqqəti həmin məqamlara, xüsusilə bu şairlərin yaşadıqları dövrlər arasındakı bir əsrlik zaman fərqinə yönəldir (4, 154).

Qeyd edək ki, alim mətbuatda çap etdirdiyi ədəbiyyata dair məqalələrin bir qisminin üzərində ciddi şəkildə işləyib, onları daha da genişləndirmiş və "Azərbaycan ədəbiyyatı" kitabına daxil etmişdir.

F.Köçərli məqalələrində milli şair və yazıçıların əsərlərinin işıq üzü görməsinin zəruriliyi ilə yanaşı, onların necə çap edilməsinə, nəşr keyfiyyətlərinə, başqa sözlə edision tekstoloji problemlərə də toxunmuşdur. Müəllifin "Milli bayram" adlı məqaləsi bu məsələlərə həsr edilmişdir. Məqalədə qonşu gürcü xalqının öz məşhur şairləri A.Seretelinin yubileyinə elliklə -"böyük, kiçik, arvad, kişi, xəvas və avam, müəllim və şagird, hər bir sinif və firqə, hətta mehmanxanalar və traktirlərdə qulluq edən lakeylərin də" hazırlaşdığı, onu milli bayrama çevirdikləri, Azərbaycan türklərinin isə "çox böyük, müqtədir və xoştəb milli şairləri olduğu halda" onların nə öz dövrlərində, nə də hazırda qədir-qiymətinin bilinmədiyi, "qəflət və kəmetinalıq, cəhalət və kəsalət səbəbindən Q.Zakirin, S.Ə.Şirvaninin tərcümeyi-hallarının və əsərlərinin kamalınca öyrənilmədiyi və layiqincə çap edilmədiyi" ürək ağrısı ilə diqqətə çatdırılır (4, 175).

Müəllif başqa məqalələrində də Vidadi, Vaqif və digər şairlərin əsərlərinin çap edilməsinin zəruriliyini dəfələrlə vurğulamışdır.

Müşahidə və müqayisələr F.Köçərlinin "Azərbaycan ədəbiyyatı" əsərinin də tekstoloji metoda söykəndiyini təsdiq edir. Doğrudur, bütün filoloji tədqiqatlar, "ədəbiyyat haqqında elmlərin ən qədimi və ən dəqiqi" mətnşünaslığın əldə etdiyi mətnlər üzərində aparılır. Bununla yanaşı, mətnşünaslığın daha sıx bağlı olduğu sahə ədəbiyyat tarixçiliyidir. Əgər ədəbiyyat tarixi bütövlükdə ədəbiyyatın inkişaf prosesini öyrənirsə, mətnşünaslıq da hər bir əsərin mətninin tarixçəsini öyrənir.

Əgər hər bir əsərinin mətninin tarixçəsindən konkret sənətkarın yaradıcılığının tarixi və hər bir sənətkarın yaradıcılığının tarixindən bütövlükdə ədəbiyyatın tarixi yaranırsa, deməli, ilk növbədə hər bir mətnin tarixçəsi öyrənilməli - mühit-müəllif-mətn əlaqələri üzə çıxarılıb şərh edilməlidir. Başqa sözlə, mətnlər üzərində əvvəlcə tekstoloji araşdırmalar aparılmalıdır.

Əslində, tekstoloji tədqiqatla (mətnşünaslıqla) ədəbiyyat tarixçiliyinin sərhədlərini müəyyənləşdirmək, aralarına sədd çəkmək mümkün deyil. Elmi ədəbiyyatda, ədəbiyyat tarixçisinin vəzifələrinə aid edilən məsələlərin bir qismi - "mətnin müəllifinin müəyyənləşdirilməsi, atribusiya və atetеza, əlyazmanın avtoqraf, yaxud köçürmə olub-olmamasının, köçürmədirsə, əslinə uyğunluq dərəcəsinin, köçürülmə yeri və tarixinin dəqiqləşdirilməsi, əsərin məzmununun şərhi" (2, 38) və s. məsələlər birbaşa mətnşünaslığın vəzifələrinə daxildir. Bu səbəbdən də mətnşünaslıq və ədəbiyyat tarixçiliyi, doğrudan da, eyni tədqiqatın tərkib hissəsi, mərhələləri - birinci ikincinin təməli, ikincisi isə birincinin davamı və belə demək mümkünsə, tamamı kimi çıxış edir. Bu, bir qanunauyğunluqdur - bunsuz ədəbiyyat tarixini yazmaq mümkün deyil və bu qanunauyğunluq F.Köçərlinin, üzərində uzun müddət - on il işləyib, 1911-ci ildə tamamladığı "Azərbaycan ədəbiyyatı" əsərinə də aiddir. Bu əsər müəllifin daha əvvəl yazıb (1902), rus dilində çap etdirdiyi (Tiflis, 1903), "Azərbaycan tatarlarının ədəbiyyatı" kitabının yenidən ciddi şəkildə işlənmiş, genişləndirilmiş və təkmilləşdirilmiş son variantıdır. Müəllif "on illik zəhmət və təlaşının səmərəsi" nəticəsində qələmə aldığı, "milli və sevgili şairlərimizin, əziz və möhtərəm ədiblərimizin tərcümeyi- halları və bərgüzidə əsərlərinin zikr olunduğu" "Azərbaycan ədəbiyyatı"nı "əziz və mübarək bir kitab adlandırır, amma onun "neçə vaxtdan bəri toz basa-basa yatıb qalmasını", vəsait yoxluğu səbəbindən "ləyaqətli tərzdə və gözəl surətdə təb olunmamasını" ürək ağrısı ilə qeyd edirdi. Bu dəyərli əsərin çap olunmamasına o dövrün mətbuatında dəfələrlə toxunulub". "Kitabı çap etdirməkdə məqsədim pul qazanmaq deyil, xalqımıza, ədəbiyyat və mədəniyyətimizə kömək etməkdir"-deyən müəllifin bu əsəri, doğrudan da çox sonralar-1925-26-cı illərdə işıq üzü görmüşdür.

F.Köçərli 128 şair və yazıçının həyat və yaradıcılığını əhatə edən "Azərbaycan ədəbiyyatı" kitabına "Müəllifi tərəfindən bir neçə söz" və "Başlanğıc" adlı ədəbi-tekstoloji müqəddimə (sonrakı nəşrlərdə onlar "Bir neçə söz" adı altında birləşdirmişdir) yazmış və müqəddimədə: 1. Bu əsəri yazmasının səbəblərinə; 2. Materialları toplama üsuluna; 3. Bəhrələndiyi mənbələrin keyfiyyətinə; 4. Kitabın tərtibində istifadə etdiyi prinsipə aydınlıq gətirmiş, ümumilikdə ədəbiyyatın, o sıradan Azərbaycan ədəbiyyatının tarixi və nəzəriyyəsi haqqında fikirlərini bildirmişdir.

Mətnşünaslıq mətni oxumaqdan (tekstoloji oxunu nəzərdə tuturuq) başlayır, amma oxunası mətnlər öncə əldə edilməlidir. F.Köçərli də sistemli Azərbaycan ədəbiyyatı tarixini yazmağa mətnləri toplamaqdan, müəllifin öz ifadəsi ilə desək, "lazım olan məlumatı cəm etmək"dən başlamışdır.

"Bir neçə söz"dən müəllifin "cəm etmək" işlərini çox çətinliklə—üç istiqamətdə apardığı məlum olur. Belə ki, ədəbi mətnlərin və məlumatların bir qismini tərtibçi özü toplamış (yeri gəlmişkən, mütəxəssislər onun xeyli əvvəl, hələ İrəvan gimnaziyasında müəllimlik etdiyi illərdə - (1885-95) bu təşəbbüsdə olduğunu təsdiq edirlər), müəyyən hissəsini yazdığı müraciətlər əsasında bir qrup təəssübkeş Azərbaycan ziyalıları - Eynəli bəy Sultanov, Mehdi bəy Hacınski, Rəşid bəy Əfəndiyev, Abbas Səhhət, Abdulla Şaiq və b. ona göndərmiş, qalan əsərləri isə L.Azərin, M.Y.Qarabağinin, A.Berjenin, H.Qayıbovun və b. təzkirə və müntəxəbatlarından, eləcə də kitaba daxil etdiyi sənətkarların (M.Füzuli, Qövsi, Aciz, Nəbati, M.F.Axundzadə, S.Ə.Şirvani, M.Talıbov və b.) divanları və əsərlərinin çap mənbələrindən götürmüşdür.

Alim öz dövrü üçün böyük əhəmiyyət kəsb edən adlarını çəkdiyimiz və çəkmədiyimiz başqa mənbələrdən istifadə etmiş, amma onlara tənqidi yanaşmışdır. Əsərinin tərtibində də L.Azərin "Atəşkədə" kitabında "tutduğu qayda və rəvişi intixab" etsə, yəni regional prinsipə əməl etsə də, kitabı onunkundan xeyli fərqlənmişdir. Müəllif yazır: "Vəli, mərhum Hacı Lütfəli bəyin kitabı ilə bizim məcmuənin arasında təfavüt çoxdur. Belə ki, Azər "Atəşkədə"sində hər bir şairin tərcümeyi-halına dair müxtəsər əhval yazıb, əsərlərindən azacıq və bir-birinə münasibəti olmayan nümunələr göstərir. Amma biz mümkün olduğu qədərdə məşhur şüəra və üdəbamızın həm tərcümeyi-hallarına və həm asari-qələmiyyələrinə dair ətraflı məlumat vermişik, məzkur əsərlərin haqqında öz rəy və təsəvvüratımızı yazıb, tövsif və ya tənqidə layiq olan məqam və nüktələri şərh və bəyan etmişik" (3, 43-44).

"Azərbaycan ədəbiyyatı"nın L.Azərin "Atəşkədə"sindən başlıca fərqi F.Köçərlinin kitabının tərtibində xronoloji prinsipdən istifadə və kitabına daxil etdiyi əsərləri, özünün də vurğuladığı kimi, "şərh və bəyan" etməsidir. Daha dəqiq desək, kitabına daxil etdiyi sənətkarları regionlar üzrə qruplaşdırıb, xronoloji ardıcıllıqla sıralaması, onları regional-xronoloji prinsip əsasında təqdim etməsi və əsərlərin məzmununu anlatmasıdır. Heç bir təzkirənin və müntəxəbatın tərtibində F.Köçərlinin bu əsərinə qədər xronoloji prinsipdən istifadə edilməmişdi.

Alimin bu elmi prinsipi Rusiya vasitəsilə Avropa filologiyasından mənimsəməsi, daha dəqiq desək, F.Köçərlinin sistemli Azərbaycan ədəbiyyatı tarixi hazırlamasının dünya ədəbiyyatşünaslığında (eləcə də mətnşünaslığında) gedən inkişaf prosesi ilə əlaqəli olması - onun nəticəsi kimi meydana çıxması şəksizdir. Və haqlı olaraq "... çoxəsrlik Azərbaycan ədəbi irsini toplayıb, elmi prinsip və ardıcıllıqla öyrənərək, öz tədqiqatının nəticələrinin "Azərbaycan ədəbiyyatı" əsərində xalqın istifadəsinə verməsi onun ən böyük xidməti sayılır. Bu əsəri yazmaqla Köçərli müasir Azərbaycan ədəbiyyat tarixçiliyi elminin əsasını qoymuş və beləliklə, gələcək tədqiqatçılar üçün geniş bir yol açmışdı" (5, 4). Əlavə edək ki, bu əsərdən həm də kitaba daxil edilən yazıçı və şairlərin əsərlərinin sonrakı nəşrlərində də istifadə edilmişdir.

Beləliklə, F.Köçərlinin ədəbiyyat haqqında tədqiqatlarının müşahidəsi:

1. Mətnşünaslığın onun "Azərbaycan ədəbiyyatı" monoqrafiyasının və bir sıra məqalələrinin tərkib hissəsi kimi çıxış etdiyini;
2. Alimin təqdim etdiyi və haqqında danışdığı əsərlərin tarixçəsini - yazılma səbəbi və şəraitini, nüsxə fərqlərini, mühit-müəllif-mətn əlaqələrini üzə çıxarıb aydınlaşdırdığını;
3. Tekstologiyanın ciddi problemlərindən olan atribusiya və ateteza, tarixləndirmə ilə məşğul olduğunu;
4. Haqqında danışdığı şair və yazıçıların bioqrafiyasını və yaradıcılığı ilə bağlı yanlışlıqları tekstoloji faktların köməkliyi ilə dəqiqləşdirdiyini;
5. Bəzi şairlərin diqqətdən yayınmış əsərlərini üzə çıxarıb çap etdirdiyini, başqa sözlə, alimin ədəbiyyat haqqındakı araşdırmalarının tekstoloji metoda əsaslandığını aşkar təsdiq edir.

Bütün bunlar isə indiyə kimi ədəbiyyat tarixçiliyi elmimizin yaradıcısı, ədəbiyyat nəzəriyyəçisi və tənqidçi, pedaqoq və tərcüməçi kimi tanıdığımız F.Köçərlidən, nəinki, səriştəli bir mətnşünas kimi söz açmağa, hətta adının mətnşünaslığın bir elm kimi formalaşması və inkişafında xüsusi xidmətləri olmuş Mirzə Kazımbəy, Əbdülqəni Nuxəvi Xalisəqarızadə və Salman Mümtazla bir sırada çəkilməsinə tam əsas verir.

**İstifadə edilmiş ədəbiyyat**


1. Əsədova A. Avropa ədəbiyyatşünaslığı və Azərbaycan ədəbi-nəzəri fikri. Bakı, Elm, 2006
2. Köprülü F. Ədəbiyyat araşdırmaları. Ankara, 1999
3. Köçərli F. Azərbaycan ədəbiyyatı. İki cilddə, I c., Bakı, "Avrasiya-press", 2005
4. Köçərli F. Seçilmiş əsərləri. Bakı, "Azərbaycan SSR EA nəşriyyatı", 1963
5. Qənbərqızı R. Firidun bəy Köçərli və onun "Azərbaycan ədəbiyyatı" əsəri. Firidun bəy Köçərli. Azərbaycan ədəbiyyatı. İki cilddə, I c., Bakı, "Avrasiya-press", 2005
6. Mirəhmədov Ə. Müqəddimə. Azərbaycan kitabı (Biblioqrafiya) Üç cilddə, I c., Bakı, 1963
7. Гришунин А.Л. К спорам о текстологии. "Русская литература", Л., "Наука", 1965, № 3
8. Лихачев Д.С. Текстология: на материале русской литературы X-XVII вв., Л., "Наука", 1983
9. Ненаева В.С. Очерк истории текстологии новой русской литературы. Основы текстологии. М., "Академия наук СССР", 1962
10. Рейсер С.А. Основы текстологии (изд. 2-ое). Л., "Просвещение", 1978.



**Aslan SALMANOV,**
*AMEA Nizami adına Ədəbiyyat İnstitutunun Ədəbiyyat nəzəriyyəsi şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru*